# Riyaziyyat

1. $a$ parametrinin hansı qiymətində $x^2 - 10x + 2a + 5 = 0$ tənliyinin kökləri qarşılıqlı tərs ədədlər olar?
A) 1 B) -2 C) -1 D) 2 E) 3

2. Hesablayın: $\frac{tan25^0 + tan20^0}{1 - tan25^0 \cdot tan20^0}$
A) $\sqrt{3}$ B) $\sqrt{2}$ C) 1
D) 0 E) $-1$

3. Uyğun tərəfləri perpendikulyar olan bucaqların biri digərindən $40°$ kiçikdir. Böyük bucağın dərəcə ölçüsünü tapın.
A) $135°$ B) $130°$ C) $125°$
D) $120°$ E) $110°$

4. $A(6; a)$ $və$ $B(b; -4)$ nöqtələri koordinat başlanğıcına nəzərən simmetrik olarsa, *ab* hasilini tapın.
A) 20 B) -16 C) -10 D) -24 E) 18

5. $sin2xcosx - sinxcos2x = 0$ tənliyinin ən kiçik müsbət kökünü tapın.
A) $\frac{\pi}{2}$ B) $\pi$ C) $\frac{\pi}{4}$
D) $\frac{\pi}{3}$ E) $2\pi$

6. Perimetri 20 sm olan kvadratın daxilinə çəkilmiş çevrənin radiusunu tapın.
A) 1,5 sm B) 3 sm C) $2\sqrt{2}$ sm
D) 2 sm E) 2,5 sm

7. Ümumi həddi $a_n = \frac{2n}{3+n}$ olan $(a_n)$ ardıcıllığının 4-cü həddini hesablayın.
A) $\frac{6}{7}$ B) -4 C) $-\frac{6}{5}$ D) 6 E) $\frac{8}{7}$

8. $a^{\frac{1}{4}} = 6$ olarsa, $a^{\frac{3}{4}}$ ifadəsinn qiymətini tapın.
A) 18 B) 48 C) 216
D) 36 E) 112

9. $\vec{a}\langle 2; 5\rangle$ və $\vec{b}\langle 0,6; -1\rangle$ vektorlarının skalyar hasilini tapın.
A) 3,6 B) $-1,2$ C) 2,6
D) $-3,8$ E) 4,4

10. $z = 1 + \sqrt{3}i$ kompleks ədədinin qoşmasını tapın.
A) $z = 1 + \sqrt{3}i$
B) $z = \sqrt{3} + i$
C) $z = 1 + \sqrt{3}i$
D) $z = 1 - \sqrt{3}i$
E) $z = \sqrt{3} - i$

11. *a* və *b* parametrlərinin hansı qiymətində $\begin{cases} 2x - 6y = b, \\ ax + 3y = -4 \end{cases}$ tənliklər sisteminin sonsuz sayda həlli var?
A) $a = -1, b = 8$ B) $a = -3, b = 6$
C) $a = -2, b = -8$ D) $a = 4, b = 2$
E) $a = 1, b = 4$

12. $ƏKOB(n; n + 1) = m$ olarsa, $\frac{n^2+3m+n}{m}$ ifadəsinin qiymətini tapın.
A) 8 B) 4 C) 6
D) 9 E) 12

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BirlikTeam1

13. $\frac{29}{90}$ kəsrini sonsuz dövrü onluq kəsr şəklində yazın.
A) $0,3(2)$ B) $0,1(2)$ C) $0,3(4)$
D) $0,5(3)$ E) $0,1(6)$

14. $2sinx + cosx$ cəminin ən böyük qiymətini tapın.
A) $\sqrt{3}$ B) $\sqrt{5}$ C) 4 D) 2 E) $\sqrt{6}$

15. $y = \sqrt[7]{x-3}$ funksiyasının təyin obıastını tapın.
A) $(-\infty; 3]$ B) $[-3; 3]$ C) $(-\infty; -3)$
D) $(-\infty; +\infty)$ E) $[3; +\infty)$

16. Rombun kor bucağı $150^0$ olarsa, onun böyük diaqonalı ilə tərəfi arasındakı bucağı tapın.
A) $20^0$ B) $25^0$ C) $35^0$
D) $10^0$ E) $15^0$

17. $a$-nın neçə tam qiymətində $\frac{a^3-7a+6}{a}$ kəsrinin qiyməti tam ədəddir?
A) 5 B) 6 C) 8
D) 9 E) 10

18. Mərkəzi $O$ nöqtəsində olan çevrədə $AnB$ qövsünün uzunluğu $2\pi$ sm və $\angle ABC = 70^0$ dərəcə olarsa, çevrənin uzunluğunu tapın.




A) $18\pi$ B) $9\pi$ C) $6\pi$
D) $12\pi$ E) $16\pi$

19. Riyaziyyat olimpiadasında 54 oğlan və 18 qız iştirak edir. Oğlanlar bütün iştirakçıların neçə faizini təşkil edir?
A) 55% B) 75% C) 65%
D) 80% E) 60%

20. $\sqrt{(\sqrt{5}-3)^2+3}$ ədədinin tam hissəsini tapın.
A) 2 B) 3 C) 4
D) 5 E) 6

21. $(2+i)^2$ kompleks ədədinin həqiqi hissəsini tapın
A) 4 B) 3 C) 2 D) 1 E) 0

22. $A$ və $B$ çoxluqları üçün $n(A \cup B) = 16$ , $A \cap B = \{1; 5; 6; 7\}$ olarsa, $n(A \setminus B) + n(B \setminus A)$ cəmini tapın.
A) 9 B) 15 C) 10 D) 12 E) 8

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

**Açıq tipli test tapşırıqları:**

23. Üçbucaq $ABC$ –də $AD$ tənböləndir.
$AB = 18$ , $AC = 15\ sm$ və $DC = 6$ olarsa, $BD$-ni tapın.

24. Katetləri 16 və 12 olan düzbucaqlı üçbucaqda hipotenuza çəkilən hündürlüyün hipotenuzdan ayırdığı kiçik hissənin uzunluğunu tapın.

25. $\frac{x^2-9}{|x+2|} < 0$ bərabərsizliyinin tam həllərininin cəmini tapın.

26. Ədədi silsilədə $a_{15} = 10$ olarsa, $S_{29}$-u tapın.

27. Uyğunluğu müəyyən edin.
1. $-2\sin\alpha$
2. $3\cos\alpha$
3. $2\sin\alpha\cos\alpha$
a. ƏBQ $= 1$
b. ƏBQ $= 3$
c. ƏKQ $= -2$
d. ƏKQ $= -3$
e. ƏBQ $= 2$

**Situasiya**

Məktəbin həyətindəki 99 uşaq birinci cərgədə 3 nəfər və hər sonrakı cərgədə əvvəlkindən 2 nəfər artıq olmaqla cərgələrə düzülərək trapesiya formasını aldılar.Cərgələr paralel düz xətlər boyuncadır və aralarındakı məsafə 2 m-dir.Hər cərgədəki uşaqlar arasındakı məsafələr də bərabərdir.

28. Bu 99 uşaq məktəbin həyətində neçə cərgəyə düzülüb?

29. Axırıncı cərgənin uzunluğu 36 m olarsa, uşaqların həyətdə tutduğu yerin (trapesiyanın) sahəsini tapın?

30. Dördüncü cərgədəki uşaqların sayı yeddinci cərgədəki uşaqların sayından neçə faiz azdır?

## Coğrafiya

31. İnsanların təsərrüfat fəaliyyəti nəticəsində çirklənmiş torpaqların bərpası adlanır:
A) irriqasiya B) rekultivasiya
C) meliorasiya D) eroziya
E) denudasiya

32. Verilən əlamətlər respublikamızın hansı düzənliyi üçün səciyyəvidir?
*- Səthi IV dövrün çöküntülərindən ibarətdir*
*- Ərazisindəki neft yatağı Mezozoyun vulkanik süxurlarında aşkar edilmişdir*




A) 1 B) 2 C) 3 D) 4 E) 5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam1

33. Cədvəli tamamlayın:

| | | |
|---|---|---|
| Göygöl | 1 | uçqun |
| 2 | şor | tektonik |
| Ağgöl | şor | 3 |

A) 1-şirin, 2-Masazır, 3-axmaz
B) 1-şirin, 2-Sarısu, 3-buzlaq
C) 1-şor, 2-Masazır, 3-tektonik
D) 1-şor, 2-Maralgöl, 3-axmaz
E) 1-şirin, 2-Hacıqabul, 3-tektonik

34. Müvafiq olaraq pampa, selvas və lyanosda yerləşən məntəqələr:




A) 7,5,6 B) 6,1,4 C) 3,5,7
D) 5,1,3 E) 2,6,1

35. Savanna və səhra təbii zonalarının geniş yer tutduğu materiklər :
1. Cənubi Amerika
2. Afrika
3. Avrasiya
4. Şimali Amerika
5. Avstraliya
A) 1,4 B) 2,5 C) 1,3
D) 3,5 E) 3,4

36. Üzərində dünyanın ən böyük su elektrik stansiyasının yerləşdiyi çayın aid olduğu hövzə:
A) Atlantik okeanı B) Sakit okean
C) Hind okeanı D) Daxili axarsız
E) Şimal Buzlu okeanı

37. İqlim diaqramının səciyyəvi olduğu ada:




A) Kuba B) Sumatra C) Tasmaniya
D) Şri-lanka E) Siciliya

38. Qrinviç meridianı ilə I saat qurşağının qərb kənar meridanı arasındakı yerli vaxt fərqini hesablayın.
A) 45 dəqiqə B) 1 saat C) 2 saat
D) 30 dəqiqə E) 1 saat 30 dəqiqə

39. Aşağıdakı xüsusiyyətlər hansı iqlim qurşağı üçün səciyyəvidir?
*- İl ərzində iki hava kütləsi hakim olur*
*- Qışı quraq, yayı isə yağıntılı keçir*
*- Qırmızı-qonur torpaqlar yayılmışdır*
A) Subekvatorial B) Ekvatorial
C) Tropik D) Mülayim
E) Subarktik

40. Zəylik və Qaradağ yataqlarının yerləşdiyi fiziki-coğrafi rayon:
A) Vulkanik yayla B) Günnüt-Qapacıq
C) Qazax-Qarabağ D) Qarabağ dağları
E) Gəncə

41. 1: 600 000 miqyaslı xəritədə (I) A və B nöqtələri arasında məsafə 12 sm-dir. Digər xəritədə bu məntəqələr arasındakı məsafə I xəritədəkindən 1,5 dəfə kiçikdir. II xəritənin miqyasını tapın.
A) 1 : 330000 B) 1 : 1500000
C) 1 : 300000 D) 1 : 900 000
E) 1 : 750 000

42. Azərbaycan ərazisində hündürlük qurşaqlığına əsasən uyğunluğu müəyyən edin.




A) 1- dağ çölləri, 2- dağ meşələri, 3- qarlı zirvələr
B) 1- dağ çəmənləri, 2- dağ çölləri, 3- buzlaqlar
C) 1- dağ meşələri, 2- dağ çəmənləri, 3- qarlı zirvələr
D) 1- düzən meşələr, 2- dağ meşələri, 3- dağ çölləri
E) 1- dağ çölləri, 2- subalp və alp çəmənləri, 3- subnival

43. Hansı sıralarda uyğunluq ***pozulmuşdur*** ?

| | **İqlim qurşağı** | **Təbii zona** | **Torpaq tipi** |
|---|---|---|---|
| **1** | Mülayim | çöl | boz-qonur |
| **2** | Subtropik | yarımsəhra | boz |
| **3** | Tropik | dəyişən rütubətli meşələr | qırmızı-ferralit |
| **4** | Mülayim | tundra | çimli podzol |
| **5** | Subekvatorial | savanna | qırmızı-qonur |

A) 2, 3 B) 1, 4 C) 3, 5
D) 1, 5 E) 2, 4

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
t.me/BirlikTeam1

44. Qərbi Avropada yağıntıların paylanmasına təsir göstərən əsas amillər:
    1. Musson küləkləri
    2. Şimali Atlantika cərəyanı
    3. Passat küləkləri
    4. Tayfunlar
    5. Qərb küləkləri
    6. Labrador cərəyanı
    A) 2, 3 B) 1, 4 C) 2, 5
    D) 1, 5 E) 4, 6

45. Şəkildə göstərilmiş okean dibinin relyef formasına aid olan xüsusiyyətlər:




    1. Materik tipli yer qabığına malikdir
    2. Üzvi mənşəli faydalı qazıntılarla zəngindir
    3. Çox meyillidir
    4. Abissal düzənliklər adlanır
    5. Qalın çökmə süxurlarla örtülüdür
    6. Okean tipli yer qabığı səciyyəvidir
    A) 1,2,5 B) 2,4,6 C) 2,3,6
    D) 1,5,6 E) 1,4,5

46. Torpaq əmələ gəlməsi üçün əlverişli şərait göstəricilərinin verildiyi sıraları müəyyən edin.

| Sıra | Orta temperatur ( °C ) | Rütubətlənmə əmsalı |
|---|---|---|
| 1 | + 18 | 0,9 |
| 2 | + 7 | 1,2 |
| 3 | + 32 | 0,2 |
| 4 | + 20 | 0,7 |

    A) 1,4 B) 2,3 C) 3,4
    D) 1,2 E) 1,3

47. Boğaz adlanır:
    A) suyun quruya çox daxil olan hissəsi
    B) bir-birinə yaxın yerləşən adalar qrupu
    C) iki geniş quru sahəsini birləşdirən ensiz quru zolağı
    D) okean hissələrini bir-biri ilə əlaqələndirən ensiz su sahəsi
    E) qurunun suya çox daxil olan hissəsi

48. Verilən çayların müvafiq olaraq suvardığı əraziləri müəyyən edin.
    I. Türyançay 1. Samur-Dəvəçi ovalığı
    II. Tərtər 2. Lənkəran ovalığı
    III. Qudyalçay 3. Qarabağ düzü
    IV. Arpaçay 4. Şirvan düzü
    V. Viləşçay 5. Arazboyu düzənlik
    A) I – 4; II – 3; III – 1; IV – 5; V – 2
    B) I – 4; II – 3; III – 2; IV – 1; V – 5
    C) I – 3; II – 4; III – 5; IV – 2; V – 1
    D) I – 4; II – 5; III – 1; IV – 3; V – 2
    E) I – 1; II – 5; III – 4; IV – 2; V – 3

49. Hansı materikin şimal və cənub ucqar nöqtələri codyarpaqlı həmişəyaşıl meşə və kolluqlar zonasında yerləşir ?
    A) Afrika B) Avstraliya
    C) Avrasiya D) Şimali Amerika
    E) Cənubi Amerika

50. Bir vilayət daxilində axan çaylar:
    1. Türyançay 2. Araz
    3. Qusarçay 4. Tərtər
    5. Gilançay 6. Kür
    A) 1, 2, 5 B) 3, 4, 6 C) 3, 5, 6
    D) 2, 3, 6 E) 1, 4, 5

51. Hansı məntəqələrdə rütubətlik əmsalı vahiddən böyükdür ?




    A) 3,4 B) 1,5 C) 1,3
    D) 2,4 E) 2,5

52. Orta duzluluğa malik 20 *litr* okean suyundan neçə qram duz almaq olar ?
    A) 350 B) 200 C) 700
    D) 400 E) 650

**Açıq tipli test tapşırıqları:**

53. Qaraqum səhrası üçün doğru olan fikirləri seçin.
    1. Dünyanın ən böyük tropik səhrasıdır
    2. Turan ovalığının cənub hissəsində yerləşir
    3. Üç yarımkürədə yerləşir
    4. Çox hissəsinin mütləq hündürlüyü 300-500 m-dir
    5. Dyun və barxanlar xarakterikdir
    6. Temperaturun illik və və sutkalıq amplitudu yüksəkdir

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

54. Sxemə əsasən Günəş şüaları cənub tropik enliyinə neçə dərəcə bucaqla düşür ?




55. Temperaturu +20$^0$ C , nisbi rütubətliyi 45 % olan 1m$^3$ hava + 10$^0$ C-yə qədər soyuyarsa, onun nisbi rütubətliyi neçə % olar ? ( 1m$^3$ havada +20$^0$ C-də maksimum 17 q, + 10$^0$ C-də isə 9 q su buxarı ola bilər )

56. Çay hövzələrini şimaldan cənuba doğru ardıcıl düzün.
1. Pirsaat 2. Viləşçay
3. Gilgilçay 4. Qudyalçay

57. Uyğunluğu müəyyən edin.
1. Mülayim qurşaq
2. Subekvatorial qurşaq
3. Ekvatorial qurşaq
a. Keçid iqlim qurşağıdır
b. İlboyu isti və rütubətli iqlim xarakterikdir
c. Çox soyuq temperatur və az yağıntı düşməsi ilə fərqlənir
d. Yüksək temperatur, az yağıntı və quraq hava şəraiti xarakterikdir
e. Fəsillər aydın müşahidə olunur

### *Situasiya*

***Sizə təqdim olunmuş şəkil-sxemə əsasən 58 - 60 –cı sualları cavablandırın. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.***




58. Təsvir olunan fiziki-coğrafi vilayəti və vilayətin fiziki-coğrafi rayonlarını cədvəldə qeyd edin.

| **Fiziki-coğrafi vilayət** | **Fiziki-coğrafi rayonlar** | **Vilayətin ən hündür zirvəsi (adı və hündürlüyü)** |
|---|---|---|
| | 1- | |
| | 2- | |

59. Vilayət üçün səciyyəvi olan iqlim və torpaq tiplərini qeyd edin.

| **İqlim tipləri** | **Torpaq tipləri** |
|---|---|
| | |

60. Ən azı 2 faydalı qazıntı növünü və yatağını qeyd edin.

| **Faydalı qazıntı növləri** | **Faydalı qazıntı yataqları** |
|---|---|
| | |
| | |
| | |
| | |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

## Tarix

61. Anaxaqanlığının mövcud olduğu dövrə uyğun gəlir:
A) Köçmə maldarlıq meydana gəldi
B) Tacirlər qrupu sənətkarlardan ayrıldı
C) Metallurgiya meydana gəldi
D) Axirət dünyasına inam yarandı
E) Neandertal tipli insanlar meydana gəldi

62. Qədim Roma və Ərəb xilafətinin "Rəşidi xəlifələr" dövrü üçün ümumi cəhəti müəyyən edin:
A) Frank imperiyası ilə mübarizə
B) Bizansın məğlub edilməsi
C) Xəzər xaqanlığı ilə toqquşmalar
D) Misirin ələ keçirilməsi
E) Yunanıstanın tabe edilməsi

63. I Dünya müharibəsi illərinə aid ***doğru*** faktları müəyyən edin:
1. İngilislərə qarşı zəhərli xlor qazından istifadə edildi
2. ABŞ-nin müharibəyə daxil olduğu ildə müharibə başa çatdı
3. Almaniya ilk dəfə sualtı qayıqlar tətbiq etdi
4. Almaniya, Avstriya-Macarıstan, Osmanlı və Bolqarıstandan ibarət "Dördlər ittifaqı" meydana gəldi
5. Marna döyüşündə ingilislər ilk dəfə tanklardan istifadə etdi
A) 1,3,4 B) 2,5 C) 1,2,5
D) 3,4 E) 2,3,5

64. 1030 – cu il Slavyan yürüşünə aiddir:
1. Alan və Sərirlər slavyanlar ilə ittifaqda idi
2. Musa ibn Fəzl qardaşına qarşı slavyanları köməyə çağırdı
3. Dərbənd hakimi slavyanları köməyə çağırdı
4. Abaskun adası qarət edildi
5. Beyləqan əhalisinə divan tutuldu
A) 1,2,3 B) 3,4,5 C) 1,2,4
D) 1,2,5 E) 2,3,5

65. Şumer şəhər – dövlətləri üçün səciyyəvi ***deyil***:
A) E.ə XXIV yüzillikdə kutilər tərəfindən işğal edildi
B) E.ə IV minilliyin sonu, III minilliyin əvvəllərində meydana gəlmişdi
C) Hökmdar "ensi", yaxud "luqal" adlanırdı
D) İdarəetmə teokratiyaya əsaslanırdı
E) Eyni mədəniyyətə malik olsalar da, hər birinin öz hökmdarı var idi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

66. Qaraqoyunlu hökmdarı Cahan şahın hakimiyyəti dövründə Təbrizdə tikilmişdir:
A) Baştağ abidəsi
B) Qeysəriyyə bazarı
C) Həşt – behişt sarayı
D) Göy məscid
E) Gülüstan abidəsi

67. Uyğunluğu müəyyən edin:
Orta əsrlərdə:
1. Fransa 2. İngiltərə 3. İtaliya
a) Mərkəzləşmiş dövlət yaranmadı
b) Kresi döyüşündə qalib gəldi
c) Kilsə torpaqlarından vergi alınması Roma papası ilə münaqişəyə səbəb oldu
d) Kral tərəfindən Böyük azadlıqlar xartiyası adlı sənəd imzalandı
A) 1-b; 2-a,c; 3-d B) 1-c; 2-b,d; 3-a
C) 1-a; 2-c; 3-b,d D) 1-b; 2-c; 3-a,d
E) 1-c; 2-d; 3-b

68. Eyler – Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:




a) 1759-cu ildə Qarabağ xanlığına hücum etdi
b) Şiraz hakimi idi
c) Məğlub edilməsi nəticəsində Təbriz xanlığı müstəqilliyini bərpa etdi
d) XVIII əsrin II yarısında fəaliyyət göstərmişdir
e) Qaraçəmən döyüşündə iştirak etmişdir
A) 1-c,e; 2-a,b; 3-d B) 1-a,e; 2-c; 3-b
C) 1-d; 2-c,e; 3-a,b D) 1-b,c; 2-d; 3-a
E) 1-b; 2-a,c; 3-d,e

69. Rusiyada zadəganların imtiyazlı təbəqəyə çevrilməsini rəsmiləşdirdi:
A) "Azad taxılçılar" haqqında fərman
B) II Yekaterinanın zadəganlar haqqında verilən fərmanı
C) "Məclis Qanunnaməsi"
D) İcra və məhkəmə səlahiyyətləri olan senatın yaradılması
E) IV İvanın boyar müxalifətini ləğv etməsi

70. Uyğunluğu müəyyən edin:

Memarlıq abidələri

| 1. XVII əsr | 2. XVIII əsr |
|---|---|
| a. Təbrizdə Şibli karvansarası<br>b. Şuşada Şahbulaq qalası<br>c. Nardaran kəndində məscid | a. Şamaxının Kələxana kəndində tikilmiş məqbərə<br>b. İrəvanda Göy məscid<br>c. Sərdar Sarayının Güzgülü salonu |

A) 1-a,c; 2-b,c B) 1-c; 2-a
C) 1-a; 2-b,c D) 1-c; 2-b
E) 1-b; 2-a

71. Müqəddəs Roma imperatoru V Karl:
1. Reformasiyaya qarşı mübarizə aparırdı
2. Katolikliyi müdafiə edirdi
3. Kalvinizmi dövlət siyasətinə çevirdi
4. İsa cəmiyyəti adlı təşkilat yaratdı
A) 3,4 B) 2,3 C) 1,4
D) 2,4 E) 1,2

72. 1870-ci il kəndli islahatı haqqında əsasnaməyə aiddir:
A) Kəndli pay torpağını alarkən dövlət tərəfindən ona heç bir yardım göstərilmirdi
B) "Əsasnamə" Azərbaycan dövlət kəndlilərinə şamil edilirdi
C) Komendant idarə üsulu ləğv olunurdu
D) Xəzər vilayəti bəylərinin torpaqları müsadirə edilirdi
E) Bəylər kəndlilər üzərində inzibati, polis və qismən məhkəmə hüququ verilirdi

73. XIX əsrin II yarısı ilə bağlı verilmiş hadisələrin uyğunluğunu müəyyən edin:




A) 2,4,6 B) 1,3,6 C) 2,3,5
D) 2,4,5 E) 1,4,5

74. Salamin və Plateya döyüşləri üçün oxşar cəhətləri müəyyən edin:
1. Əhəmənilər Afina dəniz ittifaqı tərəfindən məğlub edildi
2. Yunanlar qələbə qazandı
3. Leonid və döyüşçüləri qələbə qazandı
4. Əhəməni hökmdarı I Dara məğlub oldu
A) 1,4 B) Yalnız 2 C) 2,3
D) 3,4 E) 1,2

75. I Dünya Müharibəsindən sonra Yaponiyanın ABŞ-yə qarşı qisasçılıq siyasətinin əsasını qoyan səbəblərdən biri idi:
A) Brian – Kelloq paktı
B) Versal müqaviləsi
C) Brest – Litovskda separat sülh
D) Millətlər Cəmiyyətinin yaradılması
E) Çinin müstəqilliyi və ərazi bütövlüyünün tanınması

76. Böyük Səlcuq dövlətinin mövcud olduğu dövrə uyğun gəlmir:
A) Dəndənəkanda Qəznəlilərin məğlub edilməsi
B) Abbasilərin paytaxtı Bağdadın ələ keçirilməsi
C) Konya və Ankara şəhərlərinin tutulması
D) Qüdsün xaçlılar tərəfindən ələ keçirilməsi
E) Səlcuq bəyin Oğuz yabqusu ilə münasibətlərinin pisləşməsi

77. **Mətn-1**
Qütbəddin Aybəkin kürəkəni qərbdə monqol hücumlarını dəf etməklə yanaşı, şərq istiqamətində dövlətin ərazilərini daha da genişləndirdi. Monqol hücumlarına qarşı mübarizə aparan Xarəzmşah Cəlaləddinə öz ərazisində sığınacaq verdi, Abbasi xəlifəsi ilə dostluq əlaqələri yaratdı.
**Mətn-2**
Gənc yaşlarında Səmərqənd və Bəlx hakimi Əmir Qazana xidmət edirdi. Əmir Qazanın vəfatından sonra Əmir Hüseyn ilə ittifaq bağlayıb qohum oldu.

***II Mətndə bəhs edilən dövlət xadimi I Mətndə bəhs edilən dövlət xadimindən fərqli olaraq:***
1. XIV əsrdə fəaliyyət göstərmişdir
2. Dehli sultanlığını idarə etmişdir
3. Çingiz xanın soyundan idi
4. Məmlüklər sülaləsinin nümayəndəsi idi
5. Qızıl Ordu qüvvələrini məğlub etmişdi
A) 2,5 B) 1,3 C) 3,4 D) 1,5 E) 2,3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
t.me/BirlikTeam

78. Qədim Albaniya dövləti üçün səciyyəvi *deyil:*
1. Quldarlıq digər dövlətlərlə müqayisədə geniş yayılmamışdı
2. E.ə III əsrin I yarısında hökmdarlar öz pullarını kəsdirməyə başladı
3. E.ə IV əsrin sonlarında meydana gəldi
4. Ariobarzanın Atropatenada hakimiyyətə gəlməsinə kömək etdi
5. Makedoniyaya qarşı müqavimət göstərmişdi
6. Maqneziya döyüşündən sonra müstəqilliyini bərpa etdi
A) 4,5,6 B) 1,2,3 C) 2,4,5
D) 1,3,6 E) 2,4,6

79. Xəritədə ştrixlənmiş ərazinin tarixinə aid xüsusiyyətləri müəyyən edin:



1. Təbəriyyə döyüşü baş vermişdi
2. Xaçlılar tərəfindən Latın imperiyası yaradılmışdı
3. XI yüzilliyin əvvəllərində bir sıra əmirliklərə parçalandı
4. Rekongista hərəkatı baş vermişdi
A) 1,2 B) 3,4 C) 1,4
D) 2,3 E) 1,3

80. Baş nazir Otto fon Bismarkın fəaliyyəti dövrünə aiddir:
A) 1848-ci il Almaniya inqilabı
B) Sadova döyüşündə Avstriyanın məğlub edilməsi
C) Almaniya ittifaqında gömrük rüsumlarının ləğv edilməsi
D) Vyana konqresində Almaniya ittifaqının təşkili
E) Elzas və Lotaringiyanın Fransaya qaytarılması

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

81. Verilən xüsusiyyətlərin aid olduğu orta əsr Azərbaycan şəhərini müəyyən edin:
*- Ərəb xilafətinin yüksəlişi dövründə Azərbaycan memarlığının inkişaf mərkəzi idi.*
*- Mənbələrdə "bu yerlərin Bağdadı" adlanırdı.*




A) 1 B) 2 C) 3 D) 4 E) 5

82. Bakı və Lənkəran xanlıqları üçün ümumi cəhətdir:
A) Şəki və Quba xanlıqları arasında bölüşdürüldü
B) İkihakimiyyətlilik mövcud idi
C) Gürcü hakiminin yürüşlərinə məruz qaldı
D) Quba xanlığından asılı vəziyyətə düşdü
E) 1806-cı ildə xanlıq hakimiyyəti ləğv edildi

**Açıq tipli test tapşırıqları:**

83. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərindən fərqli olaraq Səfəvilər:
1. Güclü mərkəzləşmiş dövlət qurmuşdu
2. Teokratik idarəetməyə əsaslanırdı
3. Şirvanşahlar dövləti asılı hala salınmışdı
4. Osmanlı ilə müharibədə qalib gəlmişdir
5. Xorasanı ələ keçirmişdir

84. Xronoloji ardıcıllığı müəyyən edin:
1. Əfqanların üsyan qaldıraraq Qəndəharı ələ keçirməsi
2. Aleksey Mixayloviçin Səfəvilər ilə danışıqlar aparması
3. Sultan Hüseynin əfqanlar tərəfindən əsir alınması
4. Uğurlu Məhəmmədin Osmanlıya sığınması

85. Hadisə - nəticə əlaqələrinin doğru göstərildiyi cavabları müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| 1 | Savalan döyüşü | Xəzərlərin Azərbaycan ərazilərinə yürüşlərinə son qoyulması |
| 2 | Xəlifə Mötəsimin hakimiyyətə gəlməsi | Xürrəmilər ilə sülh müqaviləsinin imzalanması |
| 3 | Bəzz döyüşündə məğlubiyyət | Babəkin Bizansa tərəf yönəlməsi |
| 4 | Heydər ibn Kavusun komandan təyin edilməsi | Babəkin yaxın silahdaşları sui – qəsd ilə aradan götürüldü |
| 5 | Cavidan və Əbu İmran arasında ədavətin hökm sürməsi | Bəzz döyüşündə Xürrəmilərin məğlub edilməsi |

86. Xəritədə qara rəng ilə verilmiş ərazinin XIX əsr tarixi üçün xarakterikdir:



1. 1868-ci ildə Tiflis quberniyasının tərkibindən ayrıldı
2. XIX əsrin I rübündə Yelenendorf və Annenfeld koloniyaları salındı
3. Xanabad manufakturası açıldı
4. Hacı Murtuzun rəhbərliyi ilə üsyan baş verdi

87. Uyğunluğu müəyyən edin:
1. XIII əsrin I yarısı
2. XIV əsrin II yarısı
3. XV əsrin I yarısı
a. Şirvanşahların Kür çayı sahilində döyüşdə məğlub edilməsi
b. Ali Monqol canişinliyi idarəçiliyinin sona çatması
c. Ağsunqurilər dövlətinin süqutu
d. Şirvan ərazisinin Cəlairi dövlətinin tərkibinə daxil edilməsi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və tapşırıqları cavab vərəqində yerinə yetirin.***

İngilis ordusunun yaxşı donanması vardı... Onlar bu donanmanın köməyi ilə Lamanş boğazını keçib Fransa ərazisində hərbi əməliyyatlara başladılar... Müharibənin əvvəlində fransızlar məğlub olmağa başladılar... İngilislər Akvitaniya tərəfdən hücuma keçdilər. Laura çayından cənubda yerləşən Puatye şəhəri yaxınlığında döyüş baş verdi... Fransızlar sayca çox idilər. Lakin onlar dağınıq hərəkət edirdilər. Ön dəstədəki fransız cəngavərləri əsas qüvvələrin gəlib çıxmasını gözləmədən ingilislərə hücuma keçdilər. Vuruşa-vuruşa irəli çıxan fransız cəngavərləri döyüş cərgələrini pozur, vuruşma zamanı bir-birinə mane olurdular... Fransız ordusunun döyüş yerinə yetişən əsas qüvvələri də darmadağın edilir.

88. Mənbədə bəhs edilən müharibənin başlanma səbəblərini yazın:

89. Mənbədə bəhs edilən döyüşün nəticələrini qeyd edin:

90. Tarixi biliklərinizə əsasən bəhs edilən müharibə dövründə İngiltərədə baş vermiş üsyanın azı iki nəticəsini qeyd edin:

TimeBirlikTeam1

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1